KREDO
№ 38 (1294) 25 dekabr 2025-ci il

# ELXAN MÜƏLLİM EL ADAMI İDİ

Folklorşünas, aşıq sənətimizin mahir bilicisi, radiomuzun "Sarıtel", "Gözəlləmə" verilişlərinin əvəzolunmaz aparıcısı olmuş Elxan Hüseynqulu oğlu Məmmədov özündən sonra böyük ad-san qoyub getdi. Ağdərədən olan iş yoldaşım Aydın Xankişi oğlu Mustafayevlə öz aramızda Elxan müəllimin haqqında söhbət edərkən, hər ikimiz onun haqqında "Elxan müəllim el adamı idi, eldən getdi", dedik. Təəssüfləndik insanlara qarşı mehriban, qayğıkeş olan bir iş yoldaşımızı itirməyimizdən.

Görünür insanın adı onun taleyi ilə birgə doğulur. Elxan müəllimə doğulanda verilən Elxan adı sanki onun tale yolunu müəyyənləşdirən bir gizli - ezoterik işarə imiş. Elxan sözü el və xan tərkiblərindən ibarət olmaqla elin xanı - tanınmışı, seçilmiş insanı anlamına gəlir. Elin xanı kimi - seçilmiş insanı kimi bir şərəfli ömür yolu yaşadı bizim Elxan Məmmədli. Yuxarıda qeyd etdiyim kimi, onun haqqında "el adamı" ifadəsini əbəs yerə işlətməmişdik. El adamı deyiləndə elin adamı, elin-obanın əziz adamı mənası adamın eyninə gəlir. El adamı qəlbən elinə-obasına, yurduna, xalqına bağlı olan insan deməkdir. El adamı elinin dar günündə də, şad günündə də camaatıyla bir yerdə olmağı bacaran, elin xeyirində-şərində olan, eli-obası ilə bir



deyib-bir gülən adam nəzərdə tutulur. El adamı elinə bağlı olduğu üçün, elini əziz tutduğu üçün, el-oba da həmin adamı özünün layiqli, şərəfli övladı kimi uca tutur, xətrini-izzətini saxlayır, başqa sözlə özünün xan oğlu kimi uca mərtəbədə görür, bilir və tanıyır. Bax bizim Elxan müəllim elinin xanı səviyyəsində tanınan və dəyərləndirilən şəxsiyyət idi.

Mənim Elxan müəllimlə tanışlığım təxminən 2000-ci ildən başlanır. 2001-ci ildə "Kredo" qəzetində onunla müsahibə də vermişəm. Daha sonra mən 2004-cü ilin 1 martında Folklor İnstitutunda elmi işçi kimi işləməyə başladım və o vaxtdan artıq Elxan Məmmədli ilə iş yoldaşı kimi daha yaxından ünsiyyətimiz başlandı. Bir dəfə institutun Elmi Şurasında kimsə mənim haqqımda dedi ki, məhsuldar məqalələrlə qəzetlərdə çıxışlar edirəm. O vaxt Elxan müəllim söhbətə dərhal müdaxilə edib dedi ki, Şakirin qəzetdə çıxan yazılarının da əksəriyyəti elmi məqalə halındadır, onun publisistik-bədii yazıları ilə yanaşı elmi məqalələri də qəzetlərdə işıq üzü görür.

Bax bizim Elxan müəllim belə həssas, diqqətcil və hər şeyin qiymətini verən insan idi. O, bizim sıramızdan cismən ayrılsa da, mənən həmişə bizimlədir. Belə qədirbilən bir insanın əziz xatirəsi bizim qəlbimizdə əbədi yaşayacaqdır. Uca Tanrıdan Elxan müəllimə rəhmət diləyir, məkanı cənnət olsun deyirik!

*Şakir ƏLİFOĞLU,*
*filologiya elmləri doktoru,*
*AMEA Folklor İnstitutunun*
*aparıcı elmi işçisi,*
*dosent.*